

Nurəddin Mirzəxanlı

# DÜNƏNKİ DEYİLSƏN

**Azərbaycan Texniki Universitetinin Metalşünaslıq mühəndisliyi fakültəsinin I kurs tələbəsi (qrup 476a) Abasova Nəzrin Əhməd qızına**

Dünənki deyilsən, qızım dünənki,
Ömür, günün kimi dəyişdi yolun;
Ədalətə sığın, haqqa güvən ki,
İnamla bərkisin qanadın, qolun!

Zərif ürəyinə yük etmə kini,
Çox da fikir vermə hər ağlı kəmə!
Elmlə sevindir müəllimini,
Süfrəyə soyuq ol, dərsə gecikmə!

Bu gün zövq alırsan tələbəlikdən,
Kamil görünürsən sən gənc yaşınla;
Bilik deyə ağrı-acıya dözsən,
Dil tapa bilərsən karandaşınla!

Oxumaq həvəsin sönməsin təki,
Elm də həyat tək dərindir, dərin!
Kitabdan, dəftərdən möhkəm yapış ki,
Zəka işığında keçsin günlərin!

Ürək-ürək yaşa xoş niyəətinlə,
Atana, anana qanad ol, qızım!
Çalış həm işinlə, həm sənətinlə
Vətənə layiqli övlad ol, qızım!

Ədalət.-2016.26 noyabr.-S.16.